**RAFIQ İSMAYILOV**
***Bakı Dövlət Universitetinin dosenti***

## ABBASILƏR MISIRINDƏ ŞƏHƏRLƏR VƏ ŞƏHƏRSALMA

Orta çağın müxtəlif əsrlərində yazılmış ərəb dilli və müxtəlif janrlı qaynaqların məlumatları ilə ilkin tanışlıq belə söyləməyə əsas verir ki, birincisi, onların müəllifləri şəhər anlamında işlədilən "mədinə", "qarya" və "bələd" sözlərinin lüğəvi mənalarından daha çox məcazi məna kəsb etməsini məqbul saymışlar, həmin sözlərdən hər birinin yerinə görə şəhər anlamını verməsi qənaətindən, başqa sözlə desək, təcrübəsindən uzaqlaşa bilməmişlər.Qeyd edək ki, şəhər anlamına bu cür yanaşma tərzi uzun zamanlar keçsə də, dəyişməz qalmışdır, hətta günümüzdə də şəhər anlamının nə olduğu və kənd anlamının nə olduğunun qəti şəkildə bilindiyi şərtlər zəminində belə istər yazılı, istərsə də şifahi ünsiyyətdə həmin ənənəyə rast gəlinməkdədir; ikincisi, həmin müəlliflər şəhərləri hər şeydən öncə, bəlli bir bölgənin siyasi-inzibati, dini və mədəni mərkəzi kimi xarakterizə edərkən nə qədər haqlıdırsa, eləcə də şəhərə iqtisadi kateqoriya kimi yanaşaraq, sənətkarlıq və ticarətin orada təmərküzləşdiyini, həmin fəaliyyət sahələrinin məhz şəhərin başlıca funksional təyinatı olduğunu və bu hal şəhəri kənddən fərqləndirir, - söyləməkdə, mötədil formada desək, heç də tam haqlı deyildirlər. Ən azı ona görə ki, elə həmin müəlliflərin əsərlərində daha çox sənətkarlıq fəaliyyəti ilə məşğul olan kəndlərin mövcudluğu haqqında məlumatlar az deyildir. Təbiidir ki, onların istehsal etdiyi sənətkarlıq məhsulları ya özləri tərəfindən, ya da vasitəçilər – ticarətçilər tərəfindən satılırdı. Deməli, həmin kəndlərdə həm də ticarət fəaliyyəti də vardı. Ümumiyyətlə isə erkən orta çağ tarixçilərinin məlumatlarına əsaslanaraq sosial-iqtisadi kateqoriya kimi bir neçə şəhər tipi olduğunu söyləyə bilərik. Bunlardan: birincisi, aqrar tipli şəhərlər idi, - onlar aqrar əlavəsi, ən başlıcası isə istər mülkiyyətçi, istərsə də sosial mənsubiyyət baxımından təbəqələşməyə az məruz qalmış əhalisi ilə fərqlənirdilər; ikincisi, sosial təbəqələşmənin kəskinləşmədiyi şərtlər mühitində orta səviyyəli mülkiyyətçilərin yaşadığı sənətkarlıq və ticarət şəhərləri; üçüncüsü, iri şəhərlər idi ki, burada inkişaf etmiş və təmərküzləşmiş, əsasən xarici bazara işləyən sənətkarlıq və ticarət fəaliyyəti mövcud idi, sosial təbəqələşmə isə çox yüksək səviyyəyə qalxmışdı.

Qaynaqların məlumatlarından və onlara əsaslanaraq söylənilən müşahidələrdən o da bəlli olur ki, şəhərlər tipindən asılı olmayaraq hamısı üçün eyni olan konkret funksiyaları yerinə yetirirdi və ümumi cəhətlərə malik idi. Bunlardan: birincisi, şəhər mərkəzi olduğu əyalət üzərində siyasi hakimiyyəti icra etməli idi; ikincisi, şəhər əyalətin dini və mədəni mərkəzi idi; üçüncüsü, şəhər kənddən tamamilə fərqli istehsal fəaliyyəti ilə məşğul idi və o, ixtisaslaşmış işçilər-sənətkarlar vasitəsilə mümkün idi; dördüncüsü, şəhər əyalətin başlıca bazar yeri və ticarət mərkəzi idi. Bu fəaliyyət sahəsi də ixtisaslaşmış insanların-tacirlər və ticarətçilərin əməyinə əsaslanırdı. Sənətkarlar və ticarətçilər həm daxili bazarın, həm də xarici bazarın-ticarətin ehtiyaclarını təmin etməkdə başlıca fiqurantlar idilər. Xarici bazar-ticarət sahəsində çalışanlar-tacirlər konkret şəhərin yerli sakini də ola bilərdi, ya da xaricdən də gələ bilərdi; beşincisi, fəaliyyət sahəsinə və yaxud sosial statusuna görə şəhərin əhalisi iki yerə bölünürdü: a) hakimiyyət təmsilçilərinə,- siyasi, hərbi və dini strukturların təmsilçilərinə-, başqa sözlə, idarəçilərə və b) ixtisaslaşmış işçilərə- sənətkarlıq və ticarət sahələrində çalışanlara, başqa sözlə istehsalçılara və onunla bağlı olan insanlara; altıncısı, şəhərlər hərəkət azadlığı və təhlükəsizlik baxışlarından əlverişli coğrafi məkanlarda yerləşirdi.

Bir sosial orqanizm kimi şəhər haqqında yuxarıda deyilənlər, təbiidir ki, onların zahiri, yəni gözə görünən tərəflərini ehtiva edir. Lakin qaynaqlardakı məlumatların gözə çarpmayan, yaxud şərh və düşüncə üçün çox da cəlbedici olmayan ayrı-ayrı sözlərin məcazi mənasına diqqətlə yanaşıldıqda şəhərlərin daha yeni-yeni və məxsusi keyfiyyətləri üzə çıxır. Bu qəbildən: 1. şəhərin fərqli xarici görkəmə malik olması və ətrafdan, başqa sözlə, təbii coğrafiyadan müxtəlif materiallardan, - daşdan, bişmiş və çiy kərpicdən, - inşa edilmiş divarlar və ya hasarlar vasitəsilə təcrid olunması; 2. binaların memarlıq üslubu və funksional təyinat baxımından müxtəlifliyi; 3. şəhər industrial, kommersiya, kommunikasiya mərkəzidir və o, bu amillərin mövcudluğu zəminində yaranır; 4. əhalinin sıxlığı və onun işlə məşğul olan kəsiminin müxtəlif ixtisarlara,- kəndli isə yalnız çoban və əkinçidir,- yiyələnməsi; 5. şəhərlinin həyata və ətraf mühitə fərqli yanaşma tərzinə və ya dünyanı daha geniş dərketmə fəlsəfəsinə malik olması; 6. şəhər əhalisinin böyük əksəriyyəti yaşayışını və iş fəaliyyətini məskun olduğu aqlomerasiya daxilində, -kəndlinin fəaliyyəti isə kənddən kənardadır, -keçirməsi; 7. şəhərin aqrar ətrafdan və kənd əhalisindən tam asılı olması, həm də onun əməyinin qanunla təsbit olunmuş müəyyən hissəsini mənimsəməsi və s. kimi cəhətləri sadalamaq mümkündür.

Sonda onu da qeyd etmək istərdik ki, orta çağ ərəb tarixçilərinin ümumiyyətlə "şəhər" anlamı, konkret halda isə Misir şəhərləri haqqında məlumalarında bəzən birbaşa, bəzən isə dolayısı da olsa, müəyyən məna dinamikliyili və siqləti də müşahidə edilməkdədir. Təbiidir ki, bu hal istər Roma-Bizans, istərsə də müsəlman Misirində tarixən mövcud olmuş gerçəkliklərdən qaynaqlanmışdır. Həmin baxımdan təkcə belə bir faktı söyləmək kifayətdir ki, Misir ərəb-müsəlman dövlətinin tərkibinə ən azı 86 şəhərlə,-Suriya və Fələstində bu rəqəm 138-dir, - daxil olubdur [1,20]. Ən maraqlısı da odur ki, Misirin fəth edilməsi ilə orada ərəblər tərəfindən tikilən ilk şəhərin, - Fustatın, - əsası qoyulmuş, 642-ci ildə isə məhşur Əmr ibn əl-As məscidi inşa edilmişdir [8,I 286]. Bu şəhər ölkəyə köç edən ərəblərin məskunlaşma mərkəzi olmaqla yanaşı, həm də yeni hakimiyyətin iqamətgahı rolunu oynamağa başlamış, miqyası və möhtəşəmliyi ilə olmasa da, hərbi-siyasi və inzibati funksiyaları baxımından İskəndəriyyə şəhərini arxa plana keçirmişdir.

Ümumiyyətlə, yeni yaranmış müsəlman hakimiyyəti başlanğıcından şəhərə və şəhər sivilizasiyasına nəinki maraqlı oldu, həm də onun inkişafı və tərəqqisinə lazimi cəhdlər göstərdi. Düşünmək olar ki, həmin məsələdə işğallar zamanı yerli xalqla hər türlü ilişkilərin qurulması və tənzim edilməsinin şəhərlər vasitəsilə mümkün olması, bu zəmində ölkənin yalnız hərbi-siyasi həyatında deyil, həm də sosial-iqtisadi və mədəni sahələrdə şəhərlərin malik olduqları və tarixi təcrübə ilə ərəblərin tanışlığı və,- əgər belə demək olarsa, - böyük bir mirası mənimsəməkdən çəkinməməsi gərəkli rol oynamışdır. Sonrakı dövrlərdə Fustat şəhərinin genişləndirilməsi və onun qonşuluğunda yeni şəhərlərin salınması fikrimizin təsdiqi sayıla bilər. Bunlardan birincisi "əl-Əskər" adlanan, - indiki ifadə ilə desək, - peyk şəhərdir. Onun əsası Abbasilərin Misirdə əməvi xəlifəsi II Mərvana qarşı hərbi əməliyyatları zamanı dağılmış Fustatı əvəzləmək məqsədilə vali Salih ibn Əli [750-751] və onun xələfi Əbu Əvn [751-753] tərəfindən qoyulmuşdur [8,I, 304]. İkincisi isə "əl-Qatai"-dir. Onu Tulunilər dövlətinin banisi Əhməd ibn Tulun [868-884] 870-ci ildə inşa etdirməyə başlamış [8,I,315;10,III,10] və iş üç ildən sonra başa çatdırılmışdır [8,I,315].

Yeni salınmış şəhərlər sırasında Helvan da vardır. Onun inşası dövrün valisi Əbd əl-Əzizin [685-705], -o, əməvi xəlifəsi Əbd əl-Məlikin [685-705] qardaşı idi, - adı ilə bağlıdır. İbn Təğribərdi [10,I,204] yazır ki, vali salınacaq şəhərin ərazisini satın almış, orada iqamətgah və məscid də daxil olmaqla bir sıra tikililər, - bunların da çoxu ticarət köşkləri və sıraları idi, - inşa etdirmişdir.

Bəs irəlidə xatırlatdığımız 86 şəhər hansılardır və qaynaqlarda necə xarakterizə olunmuşlar? Bu saydan bəhs edən O.Q.Bolşakov yazır ki, qibti qaynaqlarına görə V-VI əsrlərdə Misirdə ən azı 106 şəhər varmış, lakin erkən ərəb tarixçiləri onlardan yalnız üzdə birinin adını çəkir. Müəllif həmin məlumatın gerçəyi düzgün əks etdirmədiyini xüsusi vurğulayır və qənaətini belə əsaslandırır ki, birincisi, ərəb tarixi qaynaqlarında fiksə olunmamış bütün şəhərlərin adları VII əsrin sonu – VIII əsrin əvvəllərinə məxsus qibti və ərəb papiruslarında – sənədlərdə vardır; ikincisi, ərəblərə qədərki digər qaynaqlarda adı keçmiş bütün şəhərlərin IX əsrin ortalarına aid siyahısı İbn Xordadbehin əsərində, demək olar ki, eyni ilə təkrarlanmışdır [1,53-54]. Bu şəhərlər hansılardır? və bu suala cavab vermək üçün İbn Xordadbehin əsərinə müraciət edək. Həm də, irəlidə deyildiyi kimi, İbn Xordadbeh onları konkret şəhər olaraq və şəhər adlandıraraq yox, müəyyən əyalətin – kuranın mərkəzi və adı kimi qələmə almışdır. Əsərdə həmin məsələdən bəhs edən hissə elə belə də adlanır: "Kuvar Mısr-Misir əyalətləri" [5,87]. Qeyd edək ki, bəzi əyalətlərdə birdən artıq şəhərlər olurdu və müəllif onların hamısını bir kuranın - əyalətin adı ilə başlamışdır. Akad. N.Vəlixanlı bu məsələlərə ətraflı şərh verdiyindən [11,248], biz əlavə təkrara ehtiyac duymadıq və hər bir şəhərin adını ayrılıqda siyahıya saldıq. Nəticədə 100-ə qədər[5,87-88] şəhər adlanması ehtimal edilən iri yaşayış məskəninin üzə çıxdığı bəlli oldu. Göründüyü kimi, bu rəqəm də irəlidə söylənilən 86 və 106 saylarından fərqlidir. Ümumiyyətlə digər qaynaqlar da vardır ki, orada VIII-X əsrlər Misirində fərqli saylarda şəhərlər olduğu yazılmışdır [1,61-65]. Bunun səbəbinə gəlincə ehtimal oluna bilər ki, o, hər şeydən öncə, qaynaq müəlliflərinin şəhər anlamına müxtəlif yanaşma tərzi ilə bağlıdır. Başqa sözlə desək, birinin şəhər adlandırdığı məkan digəri üçün kənd idi və yaxud əksinə də ola bilərdi. İkinci halda xatırlatmaq istərdik ki, fatimi xəlifəsi əl-Muntəsir billah [1036-1094] dövründə əyalətlərdə güclü, çevik və daha mərkəzləşdirilmiş idarəçilik sistemi yaratmaq məqsədilə aparılan islahatlara görə ölkənin böyük hissəsində kiçik kuralar ləğv edildi. İki, bəzən də daha artıq kura bir iri inzibati-idarə vahidində birləşdirildi. Təbiidir ki, nəticədə kuraların sayı müəyyən qədər azalmış oldu. Bu da, heç şübhəsiz, şəhər anlamına kura mərkəzi kimi yanaşan tarixçilərin məlumatlarına təsirsiz qalmaya bilməzdi.

Şəhərlər tarixi-coğrafi ərazi mənsubiyyəti baxımından iki yerə bölünür və Mısr əs-sufla-Aşağı Misir və Mısr əl-ulya, yaxud əs-Səid,-yuxarı Misir şəhərləri adlandırılırdı. Qeyd edək ki, Misirinin iki coğrafi bölgəyə bölünməsi ənənəsi ərəblərə Bizans dövründən miras qalmışdı və işğaldan sonrakı dövrlərdə də,- bizim halda Abbasilərin hakimiyyəti boyunca.- ölkə hətta siyasi-inzibati baxımdan iki hissədən ibarət idi [2,191; 7,84], hər hissənin də özünün valisi və müxtəlif funksional təyinatlı şəhərləri vardı.

Bu qısa şərhdən sonra istərdik ki, qaynaqların şəhəri necə xarakterizə etməsi sualına cavab olaraq bir neçə məxsusi nümunələr gətirək və ona müsəlman Misirinin mərkəzi Fustatdan başlayaq. İlk öncə onu da vurğulayaq ki, Abbasilərin hakimiyyətə gəlməsi ilə təkcə Misirdə deyil, bütünlikdə Xilafət miqyasında şəhərlərin ümumi durumunda əsaslı dəyişiklik baş vermədi. Əksinə, onların daxili həyatında canlanma və inkişaf yarandı. Ən maraqlı məqamlardan biri də o oldu ki, paytaxat Suriyadan İraqa köçürüldü və bu məqsədlə Bağdad şəhəri [862-ci il] salındı, ardınca isə türk hərbiçiləri üçün Samarra şəhəri [835-ci il] tikildi. Bu hal Misirdə də təkrarlandı. Abbasli valisinin iqamətgahı üçün Fustatın yaxınlığında Əskər şəhərinin (750-ci il) əsası qoyuldu və Misirdə türklərin hakimiyyəti birdəfəlik bərqərar olduqda, onlar da özləri üçün Qətai şəhərini (870-ci il) inşa etdilər. Çox keçmədi ki, bu şəhərlər yalnız Misirdə və ya Xilafət miqyasında deyil, bütün dünyaya meydan oxuyan siyasi-inzibati, iqtisadi və mədəni mərkəzlərə çevrildilər. Həm də onlar,-Kufə (638-ci il), Bəsrə (637-38-ci il) və Qirvan (670-ci il) da daxil olmaqla,- ərəb-müsəlman ağlı, zəkası və düşüncəsinin nəticəsi kimi bütün mü-

səlman dünyasında şəhərsalma və memarlıq elmi və mədəniyyətinin sonrakı inkişafına güclü təsir göstərdi.

Konkret olaraq Abbasilər dövrü Misir şəhərlərinə gəlincə, heç şübhəsiz ki, onların başında ölkənin siyasi inzibatı şəhəri funksiyasını öz üzərinə götürmüş Fustat dayanırdı. Şəhərin 642-ci ildə ərəb-müsəlmanlar tərəfindən salınması tarixi və məqsədi haqqında irəlidə qısa şəkildə deyilənlərə qaynaqlardan götürülmüş bəzi məlumatları əlavə etmək istərdik. Məqrizi yazır: "... hicrətin 21 (642)-ci ilində əsası qoyulan [3,IV,59;9, I,132;9,I,172,12,23] Əmr ibn-əl-As məscidi bu şəhərin [Fustatın] salınmasının nüvəsi oldu. Ərəb qəbilələri bu məscidin ətrafında öz məhəllələrini inşa etdilər. Şəhər Fustat adlandırıldı və insanlar orada məskunlaşdılar[8,I,286]. Şəhərin topoqrafik mənzərəsini Məqrizi belə təsvir edir: "ora əl-Muqattam dağının doğuya uzanan silsiləsi və Nil çayı arasında yerləşən geniş məkandan və tarlalardan ibarət idi. Ərazidə Qəsr əş-Şəmə və ya sadəcə Qala adlanan [hərbi] istehkamdan başqa nə bir bina, nə bir ev vardı. Qalanın qonşuluğunda [az sayda] bəhri [Aşağı Misir əhli-R.İ.] [yaşayırdı]. [Qala] quzey tərəfdən ağaclar və üzüm bağları ilə əhatə olunmuşdu. Elə orada da köhnə məscid (Əmr ibn əl-As məscidi-R.İ) tikilmişdi. Qala və dağ arasındakı [ərazidə] xristianların bir neçə kilsəsi vardı." [8,I,286]. Məqrizinin yazdıqlarından bu da bəlli olur ki, şəhər və kənd olmasına fərq qoyulmadan Nil hövzəsindəki bütün yaşayış məskənlərinin çaya bitişik şəkildə salınması təcrübəsinin hakim olduğu bir zamanda Fustat sahildən kənarda inşa edilmişdir. Bu barədə İbn Əbd əl-Hakəmin məlumatları da çox maraqlıdır. O yazır ki, Əmr ibn əl-As Misirin işğalını başa çatdırdıqdan sonra İskəndəriyyə şəhərində məskunlaşmaq istəyir və icazə üçün xəlifə Ömərə (634-644) müraciət edir. Gələn qasiddən: orada məni müsəlmanlardan ayıracaq çay varmı?- sualına: - Nil çayı oradan keçir! – cavabını alan xəlifə Əmr İbn əl-Asa: "mən istəmirəm ki, sən müsəlmanları aradan keçən çay üzündən yay-qış məndən ayrı düşəcək yerdə məskunlaşdırasan!"- xəbərdarlığını göndərir[(2,111]. Bunun ardınca İbn Əbd əl-Hakəm yazır ki, xəlifə Ömər həm Bəsrə valisi Səd ibn əl-Vaqqasa, həm də Misir valisi Əmr ibn əl-Asa ciddi göstəriş vermişdi: "Elə edin ki, mənimlə sizin aranızda çay olmasın və mən dəvəmə minib sizə gəlmək istəyəndə o, [mənzil başına] yeriyərək çata bilsin [2,111-112]." Maraqlıdır ki, xəlifənin bu qərarının səbəbi haqqında qaynaqlarda müəyyən bir şərh yoxdu və biz də onun mahiyyətini anlamaq çətinliyi qarşısında qaldıq: qərarın əsasında böyük çaylar görməmiş ərəbin su xofu dayanırdı, yoxsa mənzilə birbaşa çatmaq düşüncəsinin dominantlığı?!

Ümumiyyətlə isə qaynaqların məlumatlarına görə Fustat salındığı tarixdən yeni ərəb-müsəlman hakimiyyətinin hərbi-siyasi mərkəzi oldu. Misirin ilk valisi Əmr ibn əl-As buradan ölkəni idarə etməyə başladı. Bu baxımdan onun gördüyü tədbirlər sırasında öncə komandanlıq etdiyi əsgərlərin yarısını Fustata yerləşdirməsi, qalan yarısını isə bərabər sayda İskəndəriyyə və digər sahil şəhərləri arasında paylaşdırması [2,111-112;9,I,58], bunun ardınca isə ölkənin idarə edilməsi üçün müxtəlif inzibati strukturlar yaratması [2,149] xüsusi qeyd olunmalıdır. Şəhərə ərəblərin axını gücləndikcə, onların daha çox da həmdani qəbilələrinin qonşuluqdakı Cizə adlı yerdə məskunlaşmasına icazə verildi. Lakin Cizə ilə Fustat arasındakı əlaqələr o qədər sıx və möhkəm oldu ki, az sonra onlar bütövləşdilər[2,149]. Şəhərdə yeni qəsrlər və binalar tikildi[2,104,110,113].

Bütün illər ərzində xüsusilə də əməvilər (661-750) dövründə şəhərdə özünə məxsus infrastruktur təşəkkül tapdı. Çoxlu hamamlar, bazarlar və s. inşa edildi və müxtəlif fəaliyyət sahələri yarandı. Bu işə hətta hakim sülalə təmsilçiləri də qoşulmuşdu. Əbn Əbd əl-Hakəm valı Əbd əl-Əzizin (685-705) tikdirdiyi və ona məxsus örtülü ticarət mərkəzləri haqqında məlumat verir. Müəllif yazır ki, həmin mərkəzlərdə bal, ip və kəndir, parça satılırdı. Digər ticarət mərkəzini də xəlifə Hişam (723-744) tikdirmişdi və o, "qaysariyyə[t] Hişam" adı ilə tanınırdı[2,136].

Təbiidir ki, bunlar Fustatın bir şəhər olaraq inkişaf etdiyini, onun yeni-yeni sosial funksiyalara yiyələndiyini, ölkə həyatında rolunun artmasını göstərir və ən başlıcası isə ona dələlət edir ki, o, şəhər üçün xarakter sayılan sivilizasiya mərkəzinə çevrilmişdi. İbn Xəldunun sözləri ilə "böyük və möhtəşəm sarayların və qəsrlərin, planlı yaşayış binalarının inşası mədəniyyətə can atmaq, zəngin və rahat həyat sürmək, köçəri həyatı və ona olan həvəsi arxada qoymaq demək idi[4,IV,342]."

Fustatın Abbasilər dövrü ta'rixi inkişafı daha dinamik olmuşdur. Belə ki, birincisi, onun davamı olaraq sülalənin valisi üçün əskər şəhəri (750-ci ildə) inşa edildi və bura ordu düşərgəsi,-elə şəhərin adı da ərəbcə "ordu" mənasını verir,-kimi salınsa da, 763-cü ilə qədər həm də Misirin siyasi-inzibati mərkəzi olmaq funksiyasını yerinə yetirdi. Həmin ildə xəlifə Əbu Cəfər əl-Mənsur (754-775) valinin yenidən Fustatda oturması haqqında əmr verdi [7,115,8,I,304]. Bununla da əskər Fustatla birləşdi və az sonra isə əhaliyə orada binalar tikməyə icazə verildi. İnşaat o qədər sürətlə getdi ki, tezliklə onun miqyası Fustatın divarlarına çatdı(8,I,304), ikincisi, 870-ci ildə Tuluni hökmdarı Əhməd ibn Tulun özünə yeni paytaxt kimi Qətai şəhərini saldırdı[8,I,304;10,III,10,49]. Əskərdən fərqli olaraq Qətai ilk gündən dövrün şəhərlərinə məxsus infrastrukturlara uyğun, başqa sözlə desək, iqamətgah və məscidlə, məhşur İbn Tulun məscidi,-yanaşı, fərqli etnoslar, sənətkarlar, ticarət və ticarətçilər üçün ayrı-ayrı ərazilər,-şəhərin adı da elə həmin mənanı ehtiva edir,-ayrılması zəminində və məhəllələr şəklində inşa edildi. Hər məhəllə mənsub olduğu subyektin adını daşıyırdı. Şəhərdə ərəb qəbilələrinə məxsus məhəllələrlə yanaşı, sudanlılar və rumlular məhəllələri, eləcə də sənətkarlar və ticarətçilər məhəllələri, orada da ovçu, parça və ətriyyat satanlar, kababçılar, aşbazlar, dəllallar və çörəkçilərə məxsus bazarlar və ya ticarət köşkləri var idi[8,I,265]. Tədqiqatçılar Qətai şəhərini islamiyyət dövründə sözün tam mənasında Nil vadisində və çayın sahilində salınan ilk şəhər adlandırırdılar. Çox keçmədi ki, Qətai də Əskər kimi Fustatla birləşdi. Üç şəhərin bütövləşməsi zəminində Fustat Misirin vahid və böyük paytaxtı oldu [8,I,343] və onun bu statusu yeni paytaxt kimi Qahirə şəhərinin salınması tarixinə (969-cu il) qədər dəyişmədi.

### ƏDƏBIYYAT

1.О.Г.Большаков. Средневековый город Ближнего Востока (VII-середина XIIIв.). Москва, Наука, 1984

2.Ибн Абд-ал Хакам. Завоевание Египта, ал-Магриба и ал-Андалуса. Перевод с арабского, предусловие и примечания С.Б.Певзнера. Москва, Наука, 1985

3.İbn Duqmaq İbrahim. Əl-intisar li-vasitət aqd əl-əmsar, əl-cüz ər-rabi. Əl-Qahira, 1893

4.İbn Xəldun. Əl-Muqəddimə. Əl-Qahirə, 1930

5.Ибн Хордадбех. Книга путей и стран. Перевод с арабского Н. Велиханлы. Баку-Элм, 1986

6.Əbu-l-Fida İsmail. Əl Muxtəsər fi əxbar əl-bəşər. Beyrut, əl-mucəlləd əl-əvvəl, 1959

7.Əl-Kindi Əbu Ömər. Vulat Mısr. Beyrut, 1959

8.Əl-Məqrizi Təqi əd-Din. Əl-məvaiz va-l-itibar fi zikr əl-xitət va-l-asar. Bulaq, 1270h.

9.Əs-Suyuti Cəlal-əd-Din. Husn əl-muhadara fi axbar Mısr va-l-Qahira. Mısr,1321h.

10.İbn Təğribərdi. Ən-nucum əz-zahira fi muluk Mısr va-l-Qahira. Əl-Qahira, 1935-1937

11.Н. Велиханлы. Комментарии и примечания к кн..- Ибн Хордадбех. Книга путей и стран. Баку- Элм, 1986

12.İbn Zuheyra. Əl-fədail əl-bahira fi məhasin Mısr va-l-Qahira. Əl-Qahira, 1969

**РАФИК ИСМАИЛОВ**
***доцент Бакинского Государственного Университета***

**ГОРОДА И ГРАДОСТРОИТЕЛЬСТВО В АББАСИДСКОМ ЕГИПТЕ**

В статье повествуется об общем положении городов в Аббасидском Египте, характеризуются их отличительные черты от деревни и определяются функциональные назначения существующих типов городов. Наряду с этим рассматривается проблема градостроительства в мусульманском Египте в целом и в период Аббасидов, в частности, исследуются причины строительства города Фустат и его спутников – Аскер и Гатаи, а также города Хельван. Кроме того автор прослеживает развитие городов и их роль в жизни страны.

**RAFIG ISMAYILOV**
***Professor of Baku State University***

**CITIES AND TOWN PLANNING IN ABBASID EGYPT**

The general situation of cities in Abbasid Egypt is described, its differences from villages are defined and their functions are determined. Along with this, problems of town planning in Egypt in general and during Abbasids in particular, the reasons of construction of Fustat and its satellites – Asker and Gatai, as well as Khelvan are researched. Furthermore, the author follows development of the cities and their role in the life of the country.

***Rəyçilər: t.e.d.N.Ç.Axundova, t.e.d.Q.S.İsmayılzadə***
***BDU-nun Tarix fakültəsinin «Asiya və Afrika ölkələri tarixi» kafedrasının 15 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***